

## ZEYNƏB DƏRBƏNDLİ

# DƏDƏ QORQUDLA YUXUDA SÖHBƏT

Bu gecə yuxuma Dədəm gəlmişdi,
Dedi bu nə haldı, hanı torpağlar?
Bu nədi, bir söylə nələr görürəm?
Analar saç yolar, bacılar ağlar.

Mən sizə bunumu vəsiyyət etdim?
Verdiz torpağları, verdiz dağları.
Hanı Xarı bülbül, İsa bulağı,
Düşmən kor qoyubdur güllü bağları.

Axı əmanətə xəyanət olmaz,
Sizə devir etdim varım yuxumu.

[redacted]

Bəs hara baxırdız, niyə görmədiz,
On səkgizdə olan soyqırımları.
Beləmi qorunur, beləmi sizcə?
Babalardan qalan yadigarları.

Mən sizə bunları qoyub gedərkən,
Demədimmi candan əziz qoruyun?
Bəs niyə mən indi qanlar görürəm,
De, niyə bulanıb Kürümün suyu?

Mən sizə inandım, etibar etdim,
Min bir əziyyətlə qurduqlarımı.
Bilmirəm mən necə həzm edim, Allah,
Gəlib öz yurdumda gördüklərimi.

*Zeynəb Şəmsətdin qızı İbrahimxəlilova (Zeynəb Dərbəndli) 1970-ci ildə Dağıstan Respublikasının Dərbənd rayonunun Rükəl kəndində dünyaya göz açıb. Gözdən ikinci qrup əlildir, məktəbə ikicə ay, yarımcı sinifə gedib. Sonralar yazıb oxumağı öz-özünə öyrənib. Müəllimi özünün dediyi kimi həyatı və Anası olub. Zeynəbin uşaq vaxtlarından şeirə, musiqiyə böyük həvəsi yaranıb. Kənd klubunda musiqi dərnəklərində iştirak etmiş, dərnəyin bütün iştirak etdiyi festivallarda birinci yerlərdə olub. 11 yaşında atasını itirən Zeynəbin, anası ona həm ata, həm ana olmuşdur. Həyatın acılarına gülümsəyərək musiqi ilə cavab verən Zeynəb, böyüyüb, bütün yaşadıqlarını və Vətənə, Anaya, Dünyaya sevgisini qələmindən damla-damla ağ vərəqə süzür. Zeynəbin məktəb oxumamağı onu sındırmadı, əksinə, o bir az da güclü oldu. O, 2010-cu ilin yanvarında "Ömür karvanı" adlı ilk şeirlər kitabını öz əlillik təqaüdünə çap etdirdi. Bununla da dayanmadı o, həmin ilin sentyabrında "Yazdım ki, sözüm qala" adlı ikinci şeirlər kitabını nəşr etdirdi. Haqsızlıq-*

[redacted]

*yatında möhürləyir.*

*Zeynəb Dərbəndi Rusiya, Azərbaycan, İraq Türkmən yazıçılar birliklərinin üzvüdür. Dərbənddə fəaliyyət göstərən "Gülüstan" ədəbi birliyinin fəal üzvü və sədridir. Türkiyə İlesamın üzvüdür. "Azad qələm" qəzetinin Dağıstan üzrə müxbiridir. Zeynəb Dərbəndli 6 kitab müəllifidir: "Ömür karvanı", "Yazdım ki, sözüm qala", "Məni Anam bağışlasın", "Dərbəndin səsi", "Tural və Gültəkin dastanı". Bu yaxınlarda rus dilində yeni kitabı çıxdı - "İspavedğ a radnoy zemle" ("Doğma torpağına sevgi etirafı"). Və 2016-cı ildə, 124 şairin yer aldığı Dərbənd, Azərbaycan, Türkiyə və İraq Türkmənli şairlərin yer aldığı ATEŞ - 2016 layihəsi antologoyasının rəhbəridir.*

*Hazırda Dərbənddə yaşayıb yazıb yaradır. Zeynəb Dərbəndli Azərbaycan xalq və bəstəkar mahnılarını və öz sözlərinə mahnılarını ifa edir. Müğənni şair Dağıstan - Azərbaycan ədəbi mühitinə və iki ölkə şairlərini bir araya gətirən ürəyi VƏTƏN İLƏ döyünən ZEYNƏB DƏRBƏNDLİ haqqında hələlik bu qədər!*

Bəlkə bir yoxudur bu gördüklərim,
Borçalım qapısı bağlı deyildir.
İrəvan düşmənə baş şəhər olub,
Barı bunu söylə, de necə ildir?

Nə qədər mən uzun yatmışam, Allah,
Əsirlər bələnib ağa, qaraya.
Bir ucu başlanqıc, bir ucu sonluq,
Bir ucu daima ölümlü dünya.

Mən susdum, cavabım olmadı deyim,
Axı nə desəm də anlamsız idi.
Mən susdum, deməyə söz tapammadım,
Desəm də nə fayda, mənasız idi.

Dədəmiz Qorquda üzü qarayıq,
Qoruya bilmədik əmanətini.
Necə deyərdim ki, bağışla, Dədə,
Biz ki unutmuşduq vəsiyyətini.

Dedi ki, xudahafiz, mən gedər oldum,
Qalsam nə faydası, kim məni anır?
Bütün olanlara içim göynəyir,
Min ildən qazınan məzarım yanır.

Üz çevirib getdi, üzüm olmadı,
Qaçım arxasıyca, saxlayım onu.
Əlimi qaldırdım uca göylərə,
Beləmi olarmış hər şeyin sonu.

Yenə də ruhunun qarşısında mən,
Deyirəm bağışla bizləri, Dədə.
Əyər bilə bilsən neçə atanın,
Torpağa dirəndi dizləri, Dədə.

Ana oğul dedi, bacı vay qardaş,
Ata acısını içinə çəkdi.
Düzdür, Qarabağda yağı dığalar,
Zəhərli bitgi tək toxumun əkdi.

Mənsə inanıram, bir gün gələcək,
Oyanar Fəridim, Mübarizlərim.
Yenə torpağların birləşəcəkdir,
Buna qadirdilər mərd ərənlərim.

Yenə də bağışla bizləri, Dədə,
Ruhun qarşısında günahkarıq biz.
Gələcək o günlər, lap az qalıbdır,
Məzarına, düşmən çökəcəkdir diz.

Bağışla bizləri, ey ulu babam,
Biz yenə də sənin övladlarınıq.
Hər şey düzələcək, Allah böyükdür,
Bu qan yerdə qalmaz, nə qədər varıq.

Allahım, bizlərdən səbiri götür,
Bizə səbr deyil, Vətən gərəkdir.
Birləşib bir olsaq, qalib gələrik,
Qələbənin özü VƏTƏN deməkdir.

Dədəmin ruhuna gəlin and içək,
Birlik olmaq üçün bizlər hər zaman.
Mən Zeynəb o zaman xoşbəxt olaram,
O vaxt ki, birləşər can Azərbaycan.

## NARİN QALAM

Düşmən qarşısında durdun ər kimi,
Qazandın savaşı, igid nər kimi,
Həmişə oyaqsan igidlər kimi,
Narin Qalam.

Aldılar, satdılar, boyun əymədin,
Min bir şər atdılar, boyun əymədin,
Atəşə tutdular boyun əymədin,
Narin Qalam.

Qələbə şalmısan hər savaşında,
Dayanmısan Dərbəndimin başında,
Bir ulu ozansan beş min yaşında,
Narin Qalam.

Neçə xanı, bəyi yola salmısan,
Hər əsirdən saysız yara almısan,
Görkəminlə öz yerində qalmısan,
Narin Qalam.

Hər yanı hasarlı, bir dar bəndin var,
Sənə səcdə qılan, necə kəndin var,
Əsirlər sirdaşın, Şah Dərbəndin var,
Narin Qalam...

Gözün üstündədir bütün dünyanın,
Dilində gəzirsən cümlə, cahanın,
Sən, şah əsərisən şah Dağıstanın,
Narin Qalam.

Sən bütün qafqaza, böyük həyatsan,
Sən cahan gözündə, bir kainatsan,
Zeynəbə hər zaman qolsan, qanadsan,
[illegible]



## DƏRBƏNDİMİN ADI

Dərbəndin adına qurban olaram,
Onu hər addımda yada salaram,
Diz çöküb önündə səcdə qılaram,
Dərbəndimin adı yazılan yerdə.

Yeddi qapısını canım sanıram,
Ulu Qalasını qəlbim sanıram,
İnanın ki Kəbəm, Qibləm sanıram,
Dərbəndimin adı yazılan yerdə.

Əyri yollarıdır üzdə naxışım,
Mənə rahat gəlir eniş, yoxuşu,
Təmiz, məsumlaşar könlüm, baxışım,
Dərbəndimin adı yazılan yerdə.

Burdan razı gedər, gələn hər bir kəs,
İnsanda yaranır, dahi bir həvəs,
Zeynəbəm, rahatca alıram nəfəs,
Dərbəndimin adı yazılan yerdə.

## DAĞISTANIM

Mahaçqala şah əsərin,
Çayların var sərir-sərin,
Adın mənası çox dərin,
Göz bəbəyim Dağıstanım.

Dərbənd sənin görən gözün,
Nurlu axşamın, gündüzün,
Bir cənnətdir dağın, düzün,
Göz bəbəyim Dağıstanım.

Şəhərlərin dəyər cana,
Soraq salmısan hər yana,
Sən hamıya oldun Ana,
Göz bəbəyim Dağıstanım.

Zeynəb səndən alır ilham,
Sənsən mənim nurlu dünyam,
Səndən ayrı qalammaram,
Göz bəbəyim Dağıstanım.

